

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 81 (21.491)

4 may 2016-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 3-də İndoneziya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Hüsnan Bəy Fananinin etimadnaməsini qəbul edib.

Səfir Hüsnan Bəy Fanani fəxri qarovul dəstəsinin qarşısından keçib.

Hüsnan Bəy Fanani etimadnaməsini dövlətimizin başçısına təqdim edib.

Sonra Prezident İlham Əliyev səfirlə söhbət edib.

Azərbaycan ilə İndoneziya arasında əlaqələrin uğurla inkişaf etdiyini deyən dövlətimizin başçısı ölkələrimizin beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində yaxşı əməkdaşlıq etdiyini vurğulayıb, ölkəmizə verdiyi dəstəyə görə İndoneziyaya təşəkkürünü bildirib. Tərəfdaşlıq əlaqələrimizə toxunan Prezident İlham Əliyev Azərbaycanın İndoneziya ilə daha yaxın əlaqələr qurmaqda maraqlı olduğunu deyib.

Xalqlarımızın eyni dinə və oxşar mədəni dəyərlərə malik olduqlarını vurğulayan səfir iki ölkə arasında müxtəlif sahələrdə mövcud olan əlaqələrin gələcəkdə daha da inkişaf etdiriləcəyinə ümidvar olduğunu deyib. O, ölkəmizdə diplomatik fəaliyyəti dövründə ikitərəfli əlaqələrimizin daha da genişləndirilməsi işində səylərini əsirgəməyəcəyini vurğulayıb.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Mayın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Koreya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Kim Çanq-Qyu ilə görüşmüşdür.

Qonağı salamlayan Ali Məclisin Sədri demişdir ki, Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Koreya Respublikası arasında əlaqələr intensiv və məhsuldar formada davam etdirilir. Əlaqələrin real nəticələri kimi Naxçıvan Dövlət Universiteti ilə Koreyanın ali təhsil ocaqları arasında qarşılıqlı müəllim-tələbə mübadiləsi həyata keçirilir, universitetdə Koreya Mərkəzi fəaliyyət göstərir. “KOİCA” şirkəti tərəfindən Naxçıvan Dövlət Universitetində elektron təhsil şəbəkəsi yaradılmışdır.

Ali Məclisin Sədri birgə layihələrin həyata keçirilməsinin əhəmiyyətini diqqətə çatdırmış, Naxçıvan Muxtar Respublikasının bundan sonra da Koreya Respublikası ilə əlaqələri genişləndirməkdə maraqlı olduğunu bildirmişdir.

Səmimi qəbula görə minnətdarlıq edən səfir Kim Çanq-Qyu Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olduğu müqəddəs Naxçıvan şəhərində olmaqdan məmnunluğunu bildirmişdir. Muxtar respublikaya səfərinin yeni əməkdaşlıq imkanlarının yaradılması məqsədinə xidmət etdiyini bildirən qonaq əlaqələrin sonrakı inkişafının vacibliyini qeyd etmişdir.

Görüşdə gələcək əməkdaşlıq məsələləri müzakirə olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Ulu öndər Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr edilmiş tədbirlər keçirilib



*Xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibətilə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində fəaliyyət göstərən Heydər Əliyev lektoriyasının “Heydər Əliyev və Azərbaycanın müstəqilliyi” mövzusunda növbəti məşğələsi keçirilib.*

Sayca iyirmi ikinci məşğələni giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Asəf Məmmədov dahi rəhbərin Azərbaycan xalqı və dövləti qarşısındakı misilsiz xidmətlərindən, şərəfli və mənalı ömür yolundan danışıb. Vurğulanıb ki, əsrlərdən bəri xalqımızın ürəyində yaşayan arzular Heydər Əliyevlə reallaşıb. Ulu öndər özünün də dediyi kimi ömrünü Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə, inkişaf etməsinə sərf edib. Ümummilli liderimiz Heydər Əliyev Azərbaycana, sözün əsl mənasında, artan güc, tükənməz qüdrət, əbədi müstəqillik qazandırıb. Müasir Azərbaycan ulu öndərin reallaşan arzusunun ifadəsinə çevrilib.

AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Musa Quliyev “Heydər Əliyev və Azərbaycanın müstəqilliyi” mövzusunda məruzə edib. Qeyd olunub ki, Azərbaycanın dövlət müstəqilliyinin bərpası uğrunda mübarizə və bu idealın gerçəkləşdirilməsi müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu ulu öndər Heydər Əliyevin ictimai-siyasi fəaliyyətinin bütün dövrlərində özünü əyani şəkildə göstərir. Azərbaycanın milli maraqlarının, milli-mənəvi dəyərlərinin, coğrafi bütünlüyünün, tarixi yaddaşının, milli məfkurəsinin qorunması naminə son dərəcə ağır və çətin dönəmlərdə həyata keçirilən işlər dahi rəhbərin dövlət müstəqilliyimizin bərpası və xilası naminə çoxşaxəli fəaliyyətinin tərkib hissəsidir. Ulu öndərimiz Heydər Əliyev bütün həyatı boyu Vətəninin, xalqının gələcəyini düşünüb. Azərbaycanın müstəqilliyinin əbədiliyinə bütün varlığıyla inanaraq bu dövlətin ideya əsaslarını, strateji inkişaf istiqamətlərini dəqiq müəyyənləşdirib.

Musa Quliyev müstəqil Azərbaycanın bugünkü inkişaf yolunun əsas istiqamətlərindən danışarkən qeyd edib ki, bu inkişaf, ilk növbədə, ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi siyasi xəttin ardıcıl şəkildə davam etdirilməsinin nəticəsidir.

“Müstəqillik dövründə Naxçıvanda gömrük xidmətinin inkişafı” mövzusunda məruzə ilə çıxış edən komitənin Gömrük nəzarətinin təşkili şöbəsinin böyük inspektoru, gömrük xidməti kapitanı Namiq Quliyev qeyd edib ki, dövlətimizin hərtərəfli diqqət və qayğısı ilə böyük inkişaf yolu keçən muxtar respublika gömrük sistemi bu gün özünün modern infrastrukturu, möhkəm maddi-texniki bazası, regionun xüsusiyyətləri nəzərə alınmaqla formalaşdırılan idarəetmə modeli və ənənələri ilə seçilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin regionda gömrük xidmətinin müasir tələblər səviyyəsində qurulması istiqamətində həyata keçirdiyi ardıcıl tədbirlər bu baxımdan mühüm əhəmiyyət kəsb edir.

Tədbirə yekun vuran komitə sədri bir daha vurğulayıb ki, illər ötdükcə ulu öndər Heydər Əliyevin böyüklüyü daha dərindən dərk edilir. Ümummilli liderimizin zəngin irsinə dərin ehtiram, siyasi xəttinə dönməz sədaqət daha uğurlu nəticələrə, işıqlı gələcəyə yol açır.

Sonda tədbir iştirakçıları “Naxçıvanlı xatirələr” adlı filmə baxıblar.

*May ayının 3-də Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibətilə “Heydər Əliyev və Azərbaycan qadını” mövzusunda tədbir keçirilib.*



Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova “Azərbaycan qadınının intibahında Heydər Əliyev şəxsiyyətinin rolu” mövzusunda məruzə edib. Bildirib ki, Azərbaycan qadınının intibahında, onun cəmiyyətin bütün sahələrində aktiv üzvə çevrilməsində misilsiz xidmətləri olan ümummilli liderimiz Heydər Əliyevin anadan olmasından 93 il ötür. Ulu öndərimizi həmişə xatırlamaq, siyasi uzaqgörənliyini gənc nəsillərə aşılamaq biz qadınların mənəvi borcudur. Çünki Azərbaycan qadınının inkişafı, dünya qadınları sırasında ön cərgələrdə dayanması, bugünkü yüksək pillədə qərar tutması ulu öndərimizin fəaliyyətinin nəticəsidir.

Qeyd olunub ki, ötən əsrin 70-ci illərindən başlayaraq Azərbaycan qadınlarının cəmiyyətdəki rolu və fəallığının sürətlə artması həmin dövrdə dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan qadınına bəslədiyi hörmət və ehtiramdan qaynaqlanırdı.

Ümummilli lider Heydər Əliyevin xalqın tələbi ilə ölkəmizdə 1993-cü ildə yenidən hakimiyyətə qayıdışından sonra qısa vaxt ərzində iqtisadi böhrandan çıxış yolları tapıldı və ölkədə yaranan ictimai-siyasi sabitlik dövlət siyasətinin bütün sahələri kimi, qadın hərəkatının inkişafına da güclü stimul verdi. Qadınlara hörmət və diqqət, onların cəmiyyətdəki statusunun və rolunun yüksəldilməsi, qanuni hüquq və maraqlarının təmin olunması dövlət siyasətinin prioritet istiqamətlərinə çevrildi. Həmin illərdə qadınların cəmiyyətdəki statusunun təmin olunması ilə bağlı ölkə rəhbərinin imzaladığı fərman və sərəncamlar qadın hüquqlarının reallaşması və təminatı istiqamətində irəliyə doğru atılmış tarixi addımlar idi. Müvafiq hüquqi bazanın yaradılması və təkmilləşdirilməsi məqsədilə həyata keçirilən geniş miqyaslı fəaliyyət qadınların ictimai və siyasi fəallıqlarının yüksəlməsinə, onların mənəvi və intellektual potensiallarının artırılmasına, sosial müdafiələrinin möhkəmləndirilməsinə təkan verdi.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatı Qadınlar Şurasının sədri Yeganə Məmmədovanın “Heydər Əliyev və milli dəyərlərimiz” və Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatı Qadınlar Şurasının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Turan Məmmədlinin “Yeni Azərbaycan Partiyasında qadınların təmsilçiliyi” mövzularında çıxışları olub. Çıxışlarda bildirilib ki, ümummilli liderimizin müəyyənləşdirdiyi dövlət qadın siyasəti Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin rəhbərliyi ilə muxtar respublikamızda uğurla həyata keçirilir. Heç şübhəsiz ki, muxtar respublika qadınlarının bütün uğurlarının təməlində dövlətimizin böyük dəstəyi və davamlı qayğısı dayanır. Tam əminliklə demək olar ki, Heydər Əliyev siyasi kursu davam etdikcə Azərbaycan qadını yeni üfüqlərdə yeni hədəflərə doğru inamla irəliləyəcək, daha böyük uğurlara imza atacaq.

Tədbirin sonunda ulu öndər Heydər Əliyevə həsr olunmuş sənədli film göstərilib, muzeyin ekspozisiyasına baxış olub.

**Xəbərlər şöbəsi**

# Ulu öndər Heydər Əliyev və Azərbaycanın müstəqilliyi



***Naxçıvan Tibb Kollecində Heydər Əliyev lektoriyasının "Heydər Əliyev və Azərbaycanın müstəqilliyi" mövzusunda növbəti məşğələsi keçirilib.***

Məşğələni giriş sözü ilə Naxçıvan Tibb Kollecinin direktor əvəzi Mehri Seyidbəyli açaraq dahi rəhbərin Azərbaycan dövləti və xalqı qarşısındakı misilsiz xidmətlərindən, təhsil və elmin inkişafındakı rolundan danışıb, ulu öndərimizin Azərbaycan mədəniyyətinin, elminin, təhsilinin və digər həyat əhəmiyyətli sahələrin inkişafında müstəsna xidmətlərindən, milli-mənəvi dəyərlərimizin qorunmasına verdiyi əvəzsiz töhfələrdən söz açıb. O bildirib ki, ümummilli liderimiz Heydər Əliyev müasir müstəqil Azərbaycan dövlətinin təməlini qoymaqla xalqımızın çoxəsrlik arzusunu həyata keçirib. Bu gün sahib olduqlarımızın hamısı ulu öndərimizin siyasi uzaqgörənliyi, sarsılmaz iradəsi və güclü xarakteri sayəsində mümkün olub.

Tədbirdə məruzə ilə çıxış edən AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev iştirakçıların diqqətinə çatdırıb ki, 1969-cu ildə respublika rəhbərliyinə gələn ümummilli liderimiz sosial-iqtisadi böhran keçirən, iqtisadi cəhətdən geridə qalan Azərbaycanı qısa zaman ərzində keçmiş ittifaqın ən qabaqcıl respublikalarından birinə çevirib. Keçmiş Sovetlər Birliyi məkanında, sovet ideologiyasının kifayət qədər güclü olduğu bir dövrdə Azərbaycanda milli-mənəvi dəyərlərin qorunması, xalqın milli düşüncə tərzinin formalaşdırılması istiqamətində həyata keçirilən tədbirləri yalnız və yalnız ulu öndərimiz Heydər Əliyev kimi Vətəninə, xalqına bağlı cəsarətli bir dövlət xadimi, böyük iradə sahibi olan siyasi lider reallaşdıra bilərdi. Şübhəsiz ki, bunlar gələcək müstəqillik dövrünə hazırlıq xarakteri daşıyırdı və bütün bunlar həyata keçirilməsəydi, ölkəmiz müstəqil dövlətçilik şəraitində özünü qoruyub saxlaya və inkişaf edə bilməzdi.

Qeyd edilib ki, Heydər Əliyev ideyalarının tükənməz, yaradıcı gücü xalqımızın nurlu gələcəyi üçün sönməz məşəldir. Xalqın qəlbində, yaddaşında, tarixində və taleyində Onu əbədiləşdirən isə cəsarəti, prinsipiallığı və çətinliklərdən çıxış yolu tapmaq kimi fitri istedadı olub. Müstəqil Azərbaycana dərin zəka sahibi, böyük vətənpərvər, ən əsası isə Heydər Əliyev kimi fenomen və dahi bir şəxsiyyətin ocağının istisində böyümüş, ərsəyə gəlmiş bir şəxsiyyətin – cənab İlham Əliyevin rəhbərlik etməsi xalqımızın böyük nailiyyətidir. Bu baxımdan Azərbaycan xalqı öz tarixinin şərəfli dövrlərindən birini yaşayır. Bütün sahələrdə dinamik inkişaf, işgüzarlıq müşahidə edilir. Yorulmadan xalqın maraq və mənafeləri, firavan yaşayışı, təhlükəsizliyi uğrunda düşünülmüş siyasət aparan, dövlətçiliyimizin keşiyində möhkəm duran, Azərbaycana bacarıqla rəhbərlik edən Prezident cənab İlham Əliyev ümummilli lider Heydər Əliyev siyasi kursunu uğurla davam etdirir.

Vurğulanıb ki, ulu öndərin müəyyənləşdirdiyi siyasi kurs ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da dönmədən və uğurla həyata keçirilir. Elə bunun ifadəsidir ki, regionumuz bu gün öz inkişafının yeni mərhələsindədir.

Sonda ulu öndərimiz Heydər Əliyev haqqında "Əbədiyyət günəşi" adlı sənədli filmə baxış olub.

**Xəbərlər şöbəsi**

***Ümummilli liderimiz Heydər Əliyev sovet hakimiyyəti dövründə respublikamızı bütün sahələrdə öncül yerlərə çıxararaq dövlət müstəqilliyimiz üçün təməl yaratmış, öz xalqının gələcək inkişaf yolunu müəyyən etmişdir. Obyektiv və subyektiv səbəblər üzündən ötən əsrin 60-cı illərində Azərbaycan iqtisadiyyatının bir çox sahələrində olduğu kimi, kənd təsərrüfatında da mənfi meyillər özünü göstərirdi.***

*Azərbaycanın özü qədər əbədi*

## Azərbaycanda aqrar sahənin inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır

Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə aqrar sahədə əsaslı tədbirlər həyata keçirilmişdir. 1970-ci il iyul ayının 23-də "Azərbaycan SSR-də kənd təsərrüfatının inkişaf etdirilməsi tədbirləri haqqında" xüsusi qərar qəbul olunmuşdur. Bununla da, bu sahədə uzun illər boyu davam edən tənəzzülə son qoyulmuş və aqrar sahənin inkişafında dönüş mərhələsi başlanmışdır. Respublikada kənd təsərrüfatının məhsuldarlığını inkişaf etdirmək üçün torpaqların irriqasiya, meliorasiya və bir sözlə, suvarma sisteminin yaxşılaşdırılmasına vəsait qoyuluşunun artırılması ilə kənd təsərrüfatının intensiv inkişafı təmin edilmişdir. Nəticədə, doqquzuncu beşillik ərzində 27 min hektar sahədə yeni suvarılan torpaq istifadəyə verilmiş, 189 min hektar sahədə suvarılan torpaqların meliorasiya vəziyyəti yaxşılaşdırılmış, 140 min hektar sahədə əkin yerləri əsaslı surətdə hamarlanmış, 189 min hektar sahədə suvarma sistemləri yenidən qurulmuş və 80 min hektar suvarılan torpağın şoranlıqdan təmizlənməsi xərcini dövlət öz öhdəsinə götürmüşdür. Görülən bütün bu tədbirlər əkinçiliyin inkişafına güclü təkan vermiş, heyvandarlığın da inkişafı üçün stimul yaratmış, respublikada 18 sənaye xarakterli heyvandarlıq kompleksi tikilib istifadəyə verilmişdir. 1975-ci ildə respublikanın kənd təsərrüfatı sahəsində ciddi yüksəliş baş vermiş, 1969-cu ilə nisbətən artım 57 faiz olmuşdu. Həyata keçirilən uzaqgörən siyasət nəticəsində Azərbaycan o zaman bütün Sovet İttifaqında ən qabaqcıl kənd təsərrüfatı respublikasına, o cümlədən pambıqçılıq və üzümçülük diyarına çevrilmişdi. Təkcə 1971-1975-ci illərdə 23,5 min hektar torpaq sahəsi əkin dövriyyəsinə qatılmışdı.

Sonrakı dövrdə kənd təsərrüfatını inkişaf etdirmək məqsədilə 1975-ci il iyulun 9-da "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalının daha da intensivləşdirilməsi tədbirləri haqqında", 1976-cı il iyulun 27-də "1976-1980-ci illərdə respublikanın ayrı-ayrı sənaye sahələrinin inkişafına dair Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin təklifinə baxılmasının yekunları haqqında", 1979-cu il fevralın 22-də "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalının daha da ixtisaslaşdırılması və üzümçülüyün və şərabçılığın inkişafı haqqında" qərarlar qəbul edilmişdir.

Beləliklə, 1970-1985-ci illər ərzində xalqımızın böyük oğlu Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan kompleks inkişaf planlarının həyata keçirilməsi respublikamızın tarixində misligörünməmiş yüksəlişlə nəticələnərək Azərbaycan tarixinin ən parlaq səhifələrini təşkil etmişdir.

XX əsrin 90-cı illərinin əvvəllərində dərinləşməkdə olan böhran xalq təsərrüfatının bütün sahələrində olduğu kimi, aqrar sahəyə də mənfi təsir göstərmiş, daxili və xarici bazarlarda respublikamızın və yerli əmtəə istehsalçılarının milli maraqlarının zərbə altına düşməsinə gətirib çıxarmışdır. 1985-ci ilə nisbətən 1993-cü ildə bütün əkin sahələrinin 12 faiz, bütün növdən olan ət istehsalının isə 2,2 dəfə azalması ölkədə ərzaq qıtlığı yaratmışdı.

Ulu öndərin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışı ilə iqtisadiyyatda yeni inkişaf mərhələsi başlanmış, ölkənin siyasi və iqtisadi sferalarını müasir şəraitə uyğunlaşdırmaq üçün qlobal və radikal islahatlar həyata keçirilmişdir. Müstəqillik dövrünün iqtisadi siyasətinin əsasını planlı-sosialist təsərrüfatından azad bazar iqtisadiyyatına keçilməsi təşkil etmiş, nəticədə, özəlləşdirmə siyasəti uğurla həyata keçirilmiş, milli sahibkarlar təbəqəsi formalaşmış, istehsalın strukturunda özəl bölmənin payı artmışdır.

İqtisadiyyatın bütün sahələrində bazar iqtisadiyyatı prinsiplərinin həyata keçirilməsində aqrar bölmənin ehtiyat mənbələrinin böyük əhəmiyyəti olduğunu xüsusi vurğulayan ulu öndər Heydər Əliyev aqrar islahatlara hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işlədiyi dövrdə başlamışdı. Ali Məclisin 1992-ci il aprelin 6-da keçirilən sessiyasında "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və "Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında" qəbul edilmiş qərarlar burada islahatların aparılmasının təməlini qoymuşdur. Qəbul edilmiş həmin qərarlardan sonra təsərrüfatlarda olan mal-qaranın bütünlükdə özəlləşdirilərək əhaliyə verilməsi ilə ozamankı ağır şəraitdə mal-qaranın kütləvi şəkildə qırılmasının qarşısı alınmışdı.

Respublikamızda bir sıra digər məsələlər kimi, torpaq islahatlarının həyata keçirilməsi də ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Torpaq islahatlarının ilk dəfə ölkə üzrə Naxçıvanda, Müstəqil Dövlətlər Birliyi məkanında isə Azərbaycanda həyata keçirilməsi nəticəsində torpaq öz sahibinə verilmişdir. Hələ 1992-ci ilin əvvəllərində ulu öndər Heydər Əliyevin rəhbərliyi altında Culfa rayonunun Şurud və Gal kəndlərində torpaq islahatları həyata keçirilmişdir. Ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclisin müzakirəsinə verilmiş "Torpaq islahatı haqqında" Azərbaycan Respublikası Qanununun 16 iyul 1996-cı ildə qəbul edilməsi və 13 avqust 1996-cı ildə həmin qanunun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə respublikada torpaq islahatlarının həyata keçirilməsi prosesi başlanmışdır. Bundan sonra "Torpaq vergisi haqqında", "Torpaq icarəsi haqqında", "Torpaq bazarı haqqında", "Torpaq kadastrı, monitorinqi və yerquruluşu haqqında" Azərbaycan Respublikasının qanunlarının, Torpaq Məcəlləsinin və digər 40-dan artıq fərman və hüquqi-normativ aktların qəbul olunması ilə torpaq islahatlarının möhkəm hüquqi bazası yaradılmışdır. Qarşıya qoyulan əsas məqsəd aqrar bölməni böhrandan çıxarmaq, iqtisadiyyatı sabitləşdirmək, əhalinin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaqdan ibarət idi. Qəbul edilmiş bir sıra qanunlar və normativ aktlarla yanaşı, "Torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarəti haqqında Əsasnamənin təsdiq edilməsi barədə" verilən Fərman tarixi bir zərurət kimi respublikada torpaq ehtiyatlarının azlığı, müxtəlif amillərin təsiri nəticəsində münbit torpaqların azalması, əhalinin ilbəil artması ilə bağlı olmuşdur. Torpağın xüsusi mülkiyyətə verilməsi ilə aqrar sahədə əmlakın özəlləşdirilməsi də başa çatdırılmış, kəndlini sahibkar etmək, torpağı əsl mülkiyyətçisinə vermək hədəflənərək şəxsi mülkiyyətə söykənən sahibkarlığın əsası qoyulmuş və 3 milyon 500 minə qədər insan torpaq mülkiyyətçisinə çevrilmişdir.

Muxtar respublikada aparılan aqrar islahatlar 1995-ci ildən sonra daha da sürətlənmişdir. 1997-ci ilin əvvəlindən başlayaraq mövcud olan dövlət və kollektiv kənd təsərrüfatı müəssisələri daha sürətlə özəlləşdirilmiş, 2000-ci ildə muxtar respublikanın kənd təsərrüfatında istehsal olunan məhsulun 99,8 faizi, 2001-ci ildə isə kənd təsərrüfatı məhsullarının hamısı özəl sektorun payına düşmüşdür.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı (2005-2010-cu illər)", "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası muxtar respublikada aqrar sahənin davamlı inkişafına əlverişli şərait yaratmışdır. "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın uğurla icrası əhalinin meyvə və tərəvəz məhsullarına olan tələbatının yerli istehsal hesabına təmin edilməsinə və tələbatdan artıq mövsümi məhsulların ixracına geniş imkanlar yaradacaqdır.

Əhalinin ərzaqla təminatı, əsasən, kənd təsərrüfatının bitkiçilik və heyvandarlıq məhsulları hesabına ödənilmədir. Bitkiçilik və heyvandarlıq məhsullarına olan tələbatın ödənilməsi üçün torpaqları və əmək ehtiyatlarından səmərəli istifadə etmək tələb olunur. Mövcud əkinəyararlı torpaqlardan səmərəli istifadənin əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsində rolu nəzərə alınaraq ötən il 61 min 414 hektar sahədə əkin aparılmışdır ki, bu da 1995-ci ildəkindən 2 dəfə çoxdur. Əkin sahələrinin suvarma suyu ilə təminatını daha da yaxşılaşdırmaq istiqamətində də ardıcıl tədbirlər görülmüşdür. Son illər muxtar respublikada heyvandarlığın, arıçılığın və balıqçılığın inkişafı məqsədilə tədbirlər görülmüş, 2015-ci ildə, ümumilikdə, 402 milyon 991 min 800 manat həcmində kənd təsərrüfatı məhsulu istehsal edilmişdir ki, bu, 1995-ci illə müqayisədə 9,2 dəfə çoxdur.

Naxçıvan Muxtar Respublikasının daha çox meyvəçilik və tərəvəzçilik üzrə ixtisaslaşması nəinki ərzaq təminatını yaxşılaşdırır, həm də xarici bazara çıxış imkanlarını genişləndirir. Ötən il tələbatdan çox istehsal edilmiş 97 milyon ABŞ dollarından artıq həcmdə kənd təsərrüfatı məhsulları, xüsusilə də meyvə və tərəvəz məhsulları ixrac olunmuşdur. Əhalini payız-qış mövsümündə tərəvəz məhsulları ilə təmin etmək məqsədilə istixanalar yaradılmışdır. Əhalinin ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi məqsədilə dövlət ehtiyatlarının yaradılması nəticəsində muxtar respublikada taxılı uzun müddət saxlamağa imkan verən anbarların həcmi 27 min tona, kənd təsərrüfatı məhsullarının saxlanması və satışını təmin edən soyuducu anbarların ümumi tutumu 13 min tona çatdırılmışdır. 2009-cu ildə tutumu 18 min ton taxılı uzun müddətə, tutumu 20 min ton taxılı qısa müddətə saxlamağa imkan verən Naxçıvan Muxtar Respublikası Taxıl Ehtiyatı Anbarının istifadəyə verilməsi əhalinin ərzaq təhlükəsizliyinin qorunmasına əlverişli zəmin yaratmışdır.

Son illər Naxçıvanda davamlı olaraq kənd təsərrüfatı məhsullarının satışı yarmarkaları keçirilir ki, bunun da əsas məqsədi əhalini bazar qiymətləri ilə müqayisədə nisbətən ucuz qiymətə ərzaq məhsulları ilə təmin etməkdir. Belə bir şəraitdə əmtəə istehsalçıları öz məhsullarını birbaşa yarmarkalarda istehlakçıya təklif etmək imkanına malik olur.

Muxtar respublikada əhalinin böyük hissəsinin kənddə yaşaması burada məşğulluğun özünəməxsus xüsusiyyətlərini yaratmaqla böyük məşğulluq potensialına malik olan kənd əhalisinə xüsusi diqqət yetirilməsini zəruri edir. "Naxçıvan Muxtar Respublikasında Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2007-2010-cu illər)" və "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" bu istiqamətdə görülən işlərin daha da sürətlənməsində mühüm rol oynamışdır.

2015-ci il muxtar respublika üçün dörd mühüm dövlət proqramının icra müddətinin başa çatması ilə əlamətdar olmuşdur. Bu proqramların ikisi birbaşa kənd təsərrüfatının inkişafı ilə bağlı olsa da, digər ikisində bu sahənin inkişafı ilə bağlı əhəmiyyətli tədbirlərin reallaşdırılması nəzərdə tutulmuşdur. Məhz bu baxımdan 2015-ci ilin Naxçıvan Muxtar Respublikasında "Kənd təsərrüfatı ili" elan olunması heç də təsadüfi deyildi. Ölkəmizdə də 2015-ci ilin "Kənd təsərrüfatı ili" elan olunması bütün diqqətləri kənd təsərrüfatına yönəltməklə bu sahənin daha da inkişaf etdirilməsinə güclü təkan vermiş, təsdiq olunmuş dövlət proqramlarının həyata keçirilməsi prosesini sürətləndirməklə, bütünlükdə muxtar respublikamızın sosial-iqtisadi inkişafını daha dayanıqlı etmişdir.

Aqrar sektorun inkişaf etdirilməsinin perspektiv istiqamətləri "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda da öz əksini tapmışdır. Bu proqramda yerli və xarici investisiyaların cəlb edilməsi ilə ərzaq məhsullarının istehsal həcminin artırılması və keyfiyyətinə ciddi nəzarətin davam etdirilməsi, baytarlıq, texniki nəzarət, sanitar və fitosanitar tədbirlərin gücləndirilməsi, tələbatdan artıq istehsal edilən kənd təsərrüfatı məhsullarının ixracının stimullaşdırılması, torpaqların meliorativ vəziyyətinin sağlamlaşdırılması, mövcud su resurslarından istifadə imkanlarının genişləndirilməsi, suvarma-drenaj şəbəkələrinin inkişaf etdirilməsi, maliyyə dəstəyinin gücləndirilməsi, kənd təsərrüfatı malları bazarlarının qorunması, maddi-texniki bazanın möhkəmləndirilməsi və digər mühüm tədbirlərin reallaşdırılması nəzərdə tutulmuşdur.

*Beləliklə, siyasi və makroiqtisadi baxımdan sabit, davamlı və dayanıqlı iqtisadi inkişafa malik olan, yenilikçi məkan kimi tanınan Azərbaycanın və onun Naxçıvan Muxtar Respublikasının bugünkü uğurları məhz Heydər Əliyev siyasətinin layiqincə davam etdirilməsinin məntiqi nəticəsidir.*

**Mehriban İMANOVA**
*iqtisad üzrə fəlsəfə doktoru*

# Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin konfransı keçirilmişdir

***Mayın 3-də Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin konfransı keçirilmişdir.***

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov konfransın gündəliyində duran məsələlər barədə məlumat vermişdir. Bildirilmişdir ki, konfransın gedişi zamanı əvvəlcə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin 5 illik fəaliyyətinə dair hesabatı dinləniləcək, daha sonra təşkilatın yeni İdarə Heyətinin üzvləri və qurumun sədri seçiləcək, Nəzarət-Təftiş Komissiyasının tərkibi müəyyənləşəcəkdir.

Konfransın gündəliyi yekdilliklə qəbul olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva bildirmişdir ki, 1971-ci ildən fəaliyyət göstərən Azərbaycan Rəssamlar İttifaqının Naxçıvan Təşkilatı 2000-ci ildə müstəqil yaradıcılıq qurumuna – Naxçıvan Muxtar Respublikasının Rəssamlar Birliyinə çevrilmişdir. 2013-cü ildə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi və Bəhruz Kəngərli adına Sərgi Salonu yeni bina ilə təmin olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin 40 illik yubileyinin keçirilməsi haqqında" 23 iyul 2011-ci il tarixli Sərəncamı ilə birliyin 40 illik yubileyi qeyd edilmişdir.

Ülviyyə Həmzəyeva bildirmişdir ki, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi konfranslararası dövrdə yaradılan şəraitdən səmərəli istifadə etməyə çalışmışdır. Hesabat dövründə muxtar respublikada beynəlxalq festivalların təşkili də diqqətdə saxlanmışdır. Belə ki, 2012-ci ildə "Naxçıvan – bəşəriyyətin beşiyi" I Beynəlxalq Rəsm Festivalı, 2014-cü ildə isə II Beynəlxalq Rəsm Festivalı keçirilmişdir. Yüksək səviyyədə keçirilən festivallarda müxtəlif ölkələrdən rəssamlar iştirak etmişlər.



Diqqətə çatdırılmışdır ki, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvləri son beş il ərzində bir çox xarici ölkələrdə keçirilən sərgilərdə, festivallarda və müsabiqələrdə iştirak etmişlər. Bu ölkələrin siyahısına Bolqarıstan, Fransa, İran, Türkiyə, ABŞ, Portuqaliya, Çin, Avstriya, Rusiya və başqa ölkələr daxildir.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri muxtar respublika rəssamlarına göstərdiyi diqqət və qayğıya görə bütün rəssamlar adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirmişdir.

İdarə Heyətinin yeni tərkibi seçildikdən sonra çıxış edən birliyin İdarə Heyətinin üzvü, Azərbaycan Respublikasının Əməkdar rəssamı Telman Abdinov demişdir ki, ötən 5 il ərzində Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinə sədrlik etmiş tanınmış rəssam Ülviyyə Həmzəyeva bu müddətdə özünü fəal, işgüzar bir şəxs kimi göstərmişdir. Onun rəhbərliyi ilə son 5 ildə 150-dən çox müxtəlif mövzulara həsr olunmuş festival, sərgi və müsabiqələr keçirilmiş, Rəssamlar Birliyinin sıraları genişlənərək 52 nəfərə çatmış, üzvlərin tərkibində gənclərə üstünlük verilmişdir. Telman Abdinov Ülviyyə Həmzəyevanın bacarığını, işgüzar qabiliyyətini, təşkilatçılığını nəzərə alaraq Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri vəzifəsinə namizədliyini irəli sürmüş, birliyin üzvlərini təklifi dəstəkləməyə çağırmışdır.

Təklif yekdilliklə dəstəklənmişdir.

Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva ona göstərilən etimada görə birliyin üzvlərinə minnətdarlığını bildirmiş, etimadı doğrultmaq üçün səylə çalışacağını qeyd etmişdir.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Nəzarət-Təftiş Komissiyasının say tərkibi müəyyənləşdirildikdən və komissiya üzvləri seçildikdən sonra konfransın qərar layihəsi oxunmuş və yekdilliklə qəbul olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov konfransda çıxış edərək demişdir ki, Azərbaycanda mədəniyyətin, incəsənətin, o cümlədən təsviri sənətin inkişafı ulu öndər Heydər Əliyevin adı və dövlətçilik fəaliyyəti ilə sıx şəkildə bağlıdır. Ümummilli liderimizin Azərbaycana rəhbərliyinin istər birinci, istərsə də ikinci dövründə milli mədəniyyətin və təsviri sənətin inkişafında yeni mərhələ başlanmış, incəsənətin inkişafına dövlət qayğısı artmış, yaradıcılıq prosesi geniş vüsət almışdır.

Vurğulanmışdır ki, ulu öndərimizin əsasını qoyduğu ənənələrin hazırda Naxçıvan Muxtar Respublikasında uğurla davam etdirilməsi nəticəsində rəssamlığın və təsviri sənətin inkişafı sahəsində də ardıcıl tədbirlər görülmüşdür. 2013-cü ildə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi və Bəhruz Kəngərli adına Sərgi Salonu yeni bina ilə təmin olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin 40 illik yubileyinin keçirilməsi haqqında" 23 iyul 2011-ci il tarixli Sərəncamı ilə birliyin 40 illik yubileyi keçirilmişdir. Bəhruz Kəngərli Muzeyi yaradılmış, hazırda da Ali Məclis Sədrinin müvafiq Sərəncamı ilə Naxçıvan şəhərində Bəhruz Kəngərli adına Rəssamlar Parkı yaradılır. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən rəssamların fərdi yaradıcılıqlarını davam etdirmələri üçün onlar hər cür şəraiti olan emalatxanalarla təmin olunmuş, öz fəaliyyəti ilə seçilən rəssamlar fəxri adlarla təltif edilmiş, rəssamların albom-kataloqları nəşr olunmuşdur.

Rəhman Məmmədov demişdir ki, bütün bunlarla yanaşı, Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsində Təsviri incəsənət və rəsmxət, Naxçıvan Müəllimlər İnstitutunda Təsviri incəsənət müəllimliyi ixtisasları açılmış, məktəbdənkənar təhsil müəssisələrində isə rəsm dərnəklərinin fəaliyyəti üçün zəruri şərait yaradılmışdır. Bu qeyd olunanlar bir daha sübut edir ki, muxtar respublikada rəssamlığın inkişafı istiqamətində mühüm işlər görülmüş, rəssamların fəaliyyəti üçün zəruri şərait yaradılmış, onlar tam olaraq dövlət qayğısı ilə əhatə olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri qeyd etmişdir ki, Rəssamlar Birliyi bundan sonra da göstərilən diqqət və qayğının müqabilində fəaliyyətini, xüsusən də rəssamlarla işi daha da gücləndirməli, may ayında keçiriləcək "Naxçıvan – bəşəriyyətin beşiyi" III Beynəlxalq Rəsm Festivalını yüksək səviyyədə təşkil etməli, müxtəlif müsabiqələr təşkil etməklə gənc istedadların aşkara çıxarılmasına, onların yaradıcılıq potensialının inkişaf etdirilməsinə, Naxçıvan reallıqlarının rəssamlarımızın yaradıcılıqlarında öz əksini dolğun şəkildə tapa bilməsinə çalışmalı, ustad dərslərin keçirilməsini davam etdirməlidir. Ümid edirik ki, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi bundan sonrakı dövrdə fəaliyyətini daha da gücləndirəcək, göstərilən etimadı doğruldacaqdır.

✍ **Rauf ƏLİYEV**

## *Amerikalı araşdırmaçı jurnalist Peter Tase:*
# Müasir Naxçıvanın inkişafının əsasında vətənpərvərlik dayanır

***Ötən həftə Bakıda keçirilmiş BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunda iştirak etmiş Amerika Birləşmiş Ştatlarından olan siyasi analitik və araşdırmaçı jurnalist Peter Tase Naxçıvan Muxtar Respublikasına da səfər edərək onun görməli yerləri, tarixi abidələri və təhsil müəssisələri ilə yaxından tanış olub. Amerikalı jurnalisti redaksiyamıza dəvət edib, onun təəssüratlarını öyrəndik:***

*– Artıq üç gündür ki, Naxçıvandasınız və səfərinizdən hansı təəssüratlarınız vardır?*

– Bu, mənim Naxçıvana ikinci səfərimdir. 2014-cü ilin payızında keçirilən humanitar forumun iştirakçısı kimi o zaman yenə də Naxçıvana səfər etmişdim. Bu dəfə də qismət oldu, gözəl ölkənizə dəvət aldım və yenidən Naxçıvana gəldim. Naxçıvana ilk gəlişimdən sonra çox dəyişikliklərin şahidiyəm. Təəssüratlarıma Naxçıvan Beynəlxalq Hava Limanında sərnişinlər üçün yaradılmış şəraitdən başlamaq istəyirəm. Limanın xidmət potensialının artırılması məqsədilə görülmüş işlər onu göstərir ki, Naxçıvan hər gün yüzlərlə qonağı qarşılamaq üçün bütün imkanlara malikdir. Bu, inkişaf edən ölkəniz üçün çox vacibdir, çünki indi bütün dünyanın diqqəti Naxçıvandadır.

*– Səfəriniz zamanı diqqətçəkən nələr gördünüz?*

– ABŞ-la Azərbaycan arasında 12 saata yaxın zaman fərqi olsa da, heç yorulmuram. Naxçıvanda özümü rahat hiss edirəm. Əvvəlcə Ordubadda olduq. Şəhər, onun quruluşu, məscidləri, digər tarixi abidələri, Ordubad çinarları məndə dərin təəssürat yaradıb. Milli yeməklərinizi çox bəyənirəm. Mənə görə Naxçıvan mətbəxinin əvəzi yoxdur. Ordubadda nələr görmədik? Bu şəhər başdan-başa muzeydir. Fikrimcə, Ordubad şəhəri YUNESKO-nun ümumdünya irsi siyahısına salınmalıdır. Bununla bağlı dünyanın nüfuzlu mətbuat orqanlarında yazılar dərc etdirəcəyəm. Mənim əsas maraq obyektim tarixi abidələr və arxeoloji mədəniyyət nümunələri üzrədir. Ordubadda aldığım təəssüratlar bir neçə yazımın əsas motivi olacaq.

*– Naxçıvandakı tarixi abidələr sizə nə deyir?*

– Vətənpərvərlik! Bilirsiniz, hər bir insan öz vətənini çox sevir. Ancaq bunu sözdən çox işdə, əməldə etmək daha yaxşıdır. Mənə bərpa olunan Gülüstan türbəsini göstərdilər. Bu, bir qəhrəmanlıqdır. Necə ki azərbaycanlılar bir zamanlar bu yerləri qorumaq, onun üzərində tarixi abidələr ucaltmaq üçün fədakarlıq edib, bu gün də həmin ənənə davam etdirilir. Bu abidələr təkcə Azərbaycanın deyildir. Onlar bütün bəşəriyyətin maddi-mədəni irsi kimi gələcək nəsillər üçün qorunub saxlanılmalıdır. Naxçıvanda tarixi abidələrə göstərilən diqqət məni heyrətləndirdi. Bu baxımdan Naxçıvanın rəhbəri cənab Vasif Talıbovun gördüyü işlər dünya əhəmiyyətlidir.

*– Əlincəqalaya getdinizmi?*

– Ordubaddan geri dönüşdə hava yağışlı olsa da, qalaya qalxmaq imkanımız oldu. Bu, mənim həyatımda möhtəşəm bir an idi. Bir daha belə bir hissi yaşaya biləcəyimə inanmıram. Qalanın müdafiəçiləri 14 il ərzində işğalçıdan qorunmaq üçün böyük qəhrəmanlıq göstəriblər. İnsanlar tarix yazıblar. Bu tarix bu gün də yazılır. Əlincəqalanın bərpasını, tarixi bərpasın nəzərdə tuturam. Bəli, bu, tarixi bir fürsətdir. Mənə verilən məlumata görə artıq iki ildir ki, burada bərpa işləri aparılır. Bu möhtəşəm tarixi qalanın bərpası həm müasir Azərbaycan tarixinin bir hissəsi, həm də mükəmməl liderliyin doğurduğu böyük vətənpərvərlik illüstrasiyasıdır. Bu işin həm də psixoloji tərəfi vardır. Buradakı daşlarda, pillələrdə qalanın müdafiəçilərinin qəhrəmanlığı qədər Naxçıvan rəhbərinin səbri və qətiyyəti də aydın oxunur. Bu işlər Naxçıvanın və bütün Azərbaycanın mənfəəti naminə çox əhəmiyyətlidir. Modern dünya da bütün bunlara ümumbəşəri işlər kimi yanaşır. İnanıram ki, yaxın zamanda bütün bunlar beynəlxalq səviyyədə də öz qiymətini alacaqdır.



*– Sizinlə redaksiyanın həyətində söhbətləşərkən Naxçıvandakı məktəblərin, universitetlərin və istehsal müəssisələrinin müasirliyindən danışdınız. Deyəsən, təhsil və istehsal müəssisələri sizdə zəngin təəssürat yaradıb.*

– Bilirsinizmi, öz keçmişi ərzində yüz, ikiyüzillik müstəqillik tarixi olan çoxlu ölkələr tanıyıram. Məsələn, Cənubi Amerika qitəsindəki ölkələrdə elə kəndlər və hətta kiçik şəhərlər vardır ki, orada bir dənə də olsun məktəb yoxdur. Bu gün Naxçıvanda yeni tikilmiş yüzlərlə məktəb, kollec və universitet binasını yalnız ölkəsinin və millətinin gələcəyini düşünən insanlar yarada bilər. Mən öyrənəndə ki, burada muzeylərlə məktəblər arasında interaktiv əlaqə yaradılır, açığı çox təəccübləndim. Dünyanın heç bir inkişaf etmiş ölkəsində bu işi pulsuz həyata keçirmirlər. Bu, bir vətənpərvərlik nümunəsidir. Mən yenə tarixi abidələr mövzusuna qayıtmaq istəyirəm. Məsələn, bildiyiniz kimi, Peruda qədim İnk mədəniyyətinin zəngin izləri vardır. Ancaq mən istəyirəm ki, onlar Naxçıvana gəlsinlər və görsünlər ki, tarixi abidələrə necə qayğı göstərmək lazımdır. Bütün bunlar blokada şəraitində, onun çətinlikləri altında həyata keçirilib. Düşünürəm ki, əgər Azərbaycana qarşı erməni təcavüzü olmasaydı, bu gözəl diyar, eləcə də bütün ölkəniz daha da inkişaf edə bilərdi. Mən Naxçıvan Dövlət Universitetinin və "Naxçıvan" Universitetinin kampusu ilə tanış oldum və tələbələrlə görüşdüm. Belə bir müasir universitet şəhərciyi yalnız Avropanın paytaxt şəhərləri ilə müqayisə oluna bilər. Buradakı tələbələrlə söhbətdə onların fəallığını yaxından hiss elədim. Bundan əvvəl Naxçıvan Biznes Mərkəzi ilə tanış olmuşdum. Burada nümayiş etdirilən Naxçıvan məhsullarına gəldikdə isə onu deyə bilərəm ki, bu, cəmi iki onilliyə sığa bilən astronomik inkişafın nəticəsi ola bilər. Əgər Badamlı suyu artıq ərəb ölkələrinə satılırsa, bu, möcüzədir. Naxçıvandakı daş məhsulları istehsalı müəssisəsi də öz müasirliyi ilə məni heyrətləndirdi. İnanın, dünyanın mərmər idxal edən ölkələrinin Naxçıvan mərmərindən xəbəri olsa, onlar daha italyan mərməri almayacaqlar. Çünki buradakı məhsullar həm ucuz, həm də keyfiyyətlidir. Başqa bir fakt isə daha heyrətamizdir. Mənə dedilər ki, artıq Naxçıvanda 8 elektrik stansiyası vardır. Buna heç kim heyrətlənməyə bilməz. Müqayisə aparaq, Braziliya kimi böyük bir ölkədə 1984-cü ildən bəri cəmi 7 elektrik stansiyası tikilib. Ancaq 1995-ci ildən sonra biri Günəş stansiyası olmaqla, Naxçıvanda 7 elektrik stansiyası yaradılıb. Bunlar təəccüblü olsa da, faktdır. Fakt odur ki, naxçıvanlılar bunları edə biliblər. Dostlarımızın uğurları bizi çox sevindirir.

*– Artıq Naxçıvandan ayrılırsınız. Ümid edirik ki, ABŞ-dakı dostlarımızla bölüşə biləcəyiniz çox təəssüratlar əldə etmisiniz.*

– Bəli, Naxçıvana bu səfərimlə, ümumiyyətlə, Bakı forumunda iştirakımla ölkənizi daha yaxından tanıdım. Bu, mənim üçün tarixi bir hadisə oldu. Sizi də, qəzetinizin əməkdaşlarını da yaxından tanıdım. Bu, mənim üçün yeni bir başlanğıcdır. Çox dərin təəssüratlar və pozitiv enerji ilə ölkənizdən ayrılıram. Müxtəlif vaxtlarda "Şərq qapısı" qəzetində dərc olunmuş məqalələrimin olduğu nüsxələr də mənim üçün ən yaxşı hədiyyə oldu. Bu gözəl diyarınızın inkişafı və qorunması işində hamınıza uğurlar arzulayıram.

*– Müsahibə üçün sağ olun.*

✍ **Əli CABBAROV**

## Amerikalı jurnalist naxçıvanlı gənclərlə görüşüb

***Mayın 3-də Naxçıvan şəhərindəki Gənclər Mərkəzində Amerika Birləşmiş Ştatlarında yaşayan müstəqil jurnalist, tədqiqatçı Peter Tase ilə gənclərin görüşü olub.***

Bu münasibətlə keçirilən tədbiri Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov açaraq muxtar respublikada həyata keçirilən gənclər siyasətindən danışıb.

Müstəqil tədqiqatçı-jurnalist Peter Tase çıxışında bildirib ki, Naxçıvan Muxtar Respublikasına sonuncu dəfə 2014-cü ildə olub. Aradan o qədər çox zaman keçməsə də, Naxçıvan xeyli dəyişib və inkişaf edib. Qonaq qeyd edib ki, muxtar respublikanın inkişafını bütün sahələrdə müşahidə etmək mümkündür. Muxtar respublikada gənclərə hərtərəfli diqqət və qayğı göstərilir. Onlarla müxtəlif layihələr həyata keçirilir. Bir sözlə, burada gənclər gələcəyin əsl kadrları kimi yetişdirilir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev çıxış edərək bildirib ki, 2014-cü ildə Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi münasibətilə keçirilən "Muxtariyyətin intibahı: 1995-2014" yaradıcılıq müsabiqəsində tədqiqatçı-jurnalist Peter Tase birinci yerə layiq görülüb. Bu münasibətlə onu bir daha təbrik edirik.

Sonra Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov diplomu qalibə təqdim edib.

Sonda tədbirdə iştirak edən gənclərin müxtəlif mövzularda sualları cavablandırılıb.

**Xəbərlər şöbəsi**

## "Yazıçı-publisist və pedaqoq Eynəli bəy Sultanov" adlı elmi konfrans keçirilib



***Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində Naxçıvan Dövlət Universiteti, "Naxçıvan" Universiteti, Naxçıvan Müəllimlər İnstitutunun birgə təşkilatçılığı ilə keçirilən Eynəli bəy Sultanovun anadan olmasının 150 illiyinə həsr olunmuş elmi konfransı giriş sözü ilə bölmənin sədri, akademik İsmayıl Hacıyev açıb. Bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Eynəli bəy Sultanovun 150 illik yubileyinin keçirilməsi haqqında" 2016-cı il 15 fevral tarixli Sərəncamı ilə görkəmli yazıçının yubileyi muxtar respublikada geniş qeyd olunur. Bu konfrans Eynəli bəy Sultanovun 150 illik yubileyinin keçirilməsi ilə əlaqədar tədbirlər planına uyğun olaraq keçirilir.***

Diqqətə çatdırılıb ki, Eynəli bəy Sultanov 1866-cı il may ayının 5-də Naxçıvan şəhərində anadan olub. 1882-ci ildə öz evində "Ziyalılar cəmiyyəti" təşkil edərək şəhərin tərəqqipərvər, açıqfikirli adamlarından Paşa ağa Sultanov, Mirzə Cəlil Mirzəyev (Şürbi), Mirzə Ələkbər Xəlilov, Əsəd ağa Kəngərli, Qurbanəli Şərifov, Baxşəli ağa Şahtaxtlı, Nəsrulla Şeyxov və başqalarını həmin cəmiyyətə cəlb edib. Bu cəmiyyətdə dövrün ictimai-siyasi, qadın azadlığı məsələləri müzakirə edilir, yeni məktəblər, kitabxanalar açmaq qərara alınır, elmi-ədəbi mübahisələr aparılırdı. Burada Aleksandr Puşkin, Lev Tolstoy, Belinski, Dobrolyubov kimi görkəmli rus yazıçı və şairlərinin də əsərləri oxunur, tərcümə edilir, xalqı qəflət yuxusundan oyatmaq üçün hər cür səy göstərilirdi.

Vurğulanıb ki, Eynəli bəy Sultanov bədii yaradıcılıq sahəsində də öz istedadını sınayıb. XIX əsrin 80-ci illərindən ədəbi fəaliyyətə başlayan ədibin "Azərbaycan qızı" ("Tatarka") pyesi Naxçıvanda tamaşaya qoyulub, 1904-cü ildə İrəvanda kitab halında nəşr edilib. Qadın azadlığı məsələsinə həsr edilən bu pyes dövrün ziddiyyətli məqamlarını, qadına olan ögey münasibəti və bu vəziyyətdən çıxış yolunu göstərən dəyərli əsərdir. Eynəli bəy Sultanovun pyes, hekayə və şeirlərində köhnəliyin tənqidi, maarifçi ideyaların təbliği, milli dəyərlərimizin və qədim adət-ənənələrimizin təsviri öz əksini tapıb. O, Naxçıvan folkloru materiallarını da toplayıb, müasiri olduğu yazıçı və şairlərin əsərlərinə məqalə və resenziyalar yazıb.

Bildirilib ki, yazıçı-publisist müxtəlif vaxtlarda ədəbi tərcümə ilə məşğul olub, Mirzə Fətəli Axundzadənin "Molla İbrahimxəlil kimyagər" və "Hacı Qara" komediyalarını, Sədinin "Gülüstan" kitabından nümunələri rus dilinə, Maksim Qorkinin "Həyatdan lövhələr", Vladimir Mayakovskinin "Bakı" şeirini, Krılovun "Tülkü və üzüm" təmsilini Azərbaycan dilinə tərcümə edib.

Konfransda AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun elmi işçisi Elxan Yurdoğlu "Eynəli bəy Sultanovun həyatı və yaradıcılıq yolu", Naxçıvan Dövlət Universitetinin dosenti İman Cəfərov "Eynəli bəy Sultanov və "Molla Nəsrəddin" ədəbi məktəbi", AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun şöbə müdiri, dosent Əkrəm Hüseynov "Eynəli bəy Sultanov və folklor", "Naxçıvan" Universitetinin dosenti Nurlana Əliyeva "Eynəli bəy Sultanov Məhəmməd Tağı Sidqinin müasiri kimi" mövzularında məruzələrlə çıxış ediblər.

**Nərgiz İSMAYILOVA**

***Dünən Naxçıvan Müəllimlər İnstitutunda muxtar respublikanın tam orta məktəblərinin müəllimlərinin cəlb edildiyi, Word, MS Windows, MS Excel proqramları və elektron lövhədən istifadə qaydaları üzrə təşkil edilən ongünlük ixtisasartırma kurslarını bitirənlərə sertifikatların təqdimetmə mərasimi keçirildi.***

## İxtisasartırma kursunu bitirənlərə sertifikatlar təqdim edilib



Tədbirdə ali təhsil ocağının rektoru, professor Oruc Həsənli çıxış edərək qeyd etdi ki, ümumtəhsil məktəblərində 600-dən çox elektron lövhə quraşdırılıb. Dərslərdə elektron lövhənin tətbiqi müəllimlə şagird arasında informasiya mübadiləsinin səmərəliliyinin yüksəldilməsinə geniş imkan yaradıb. Buna görə də müəllimlər elektron lövhənin imkanlarından geniş istifadə etməyi bacarmalı, bu lövhələrdən maksimum şəkildə yararlanmaq üçün lazım olan proqramları yaxşı mənimsəməlidirlər. Kursun təşkilində də məqsəd müəllimlərin elektron lövhələrdən istifadə səviyyəsini yüksəltməkdir.

Sonra kursu bitirənlərə sertifikatlar təqdim edildi.

Tədbirdən sonra həmsöhbət olduğumuz Naxçıvan Müəllimlər İnstitutunun informatika müəllimləri Səminə Rüstəmova və Kəmalə İbrahimova bildirdilər ki, kursun ilk günlərində iştirakçıların elektron lövhə ilə bağlı məhdud səviyyədə bilikləri olsa da, on gün ərzində onlar bu lövhələrdən peşəkarlıqla istifadə etməyi öyrənə biliblər. Sözsüz ki, kursda yaxşı nəticələr əldə edilməsinin bir səbəbi də kursa qatılanların bu işə böyük maraq və həvəs göstərmələridir. Əminliklə demək olar ki, onların qazandıqları biliklərin tədris prosesində böyük faydası olacaq.

Kursu uğurla başa vuranlardan Babək rayonunun Kərimbəyli kənd tam orta məktəbinin müəllimi Lətafət Seyidbəyli və Çeşməbasar kənd tam orta məktəbinin müəllimi Zülfəli Əliyevlə söhbətimizdə qeyd edildi ki, belə kursların təşkili vacibdir və müasir texnologiyalarla bağlı biliklərinin artırılmasında mühüm rol oynayır. Bu kurs vasitəsilə öyrəniblər ki, elektron lövhə müəllimin ən yaxın köməkçisi ola biləcək bir vəsaitdir. Ondan effektiv istifadə isə elə özlərindən – yəni bu lövhənin imkanlarından nə dərəcədə istifadə etmək bacarıqlarından asılıdır. Kursda interaktiv lövhədən daha səmərəli istifadə etmək üçün, ilk növbədə, onun proqram təminatını dərindən öyrəniblər və ondan istifadə zamanı köməyi ola biləcək resursları təyin ediblər. Ümumiyyətlə, Naxçıvan Müəllimlər İnstitutu son illərdə onların müasir texnologiyaları mənimsəməsinə yaxından kömək edir. Bu köməyə görə təşkilatçılara minnətdardırlar.

**S.HÜSEYNOV**

### İdman icmalı

## İdmanın kütləviliyini təmin edən yarışlar



***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə muxtar respublikada fəaliyyət göstərən federasiyalar hər ay idman tədbirləri keçirməklə, uşaq, yeniyetmə və gənclərin sağlamlığı ilə yanaşı, onların asudə vaxtlarının səmərəli təşkil olunmasını da təmin edirlər.***

Hər ay olduğu kimi, aprel ayında da Gənclər və İdman Nazirliyi ilə federasiyaların birgə təşkil etdikləri yarışlar və turnirlərdə yüzlərlə gənc iştirak edib. Ay ərzində ilk olaraq Şərur Olimpiya-İdman Kompleksində "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında kikboksinq üzrə Şərur rayon və Naxçıvan şəhər komandaları arasında yoldaşlıq görüşü keçirilib. 80-dən çox idmançının iştirak etdiyi görüşdə əsas məqsəd istedadlı idmançıları üzə çıxarmaq və onların ölkə birinciliyində mübarizələrini təmin etmək olub. Şərq Döyüşü Sənəti Federasiyasının nazirliklə birgə təşkil etdiyi yarışdan sonra Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində məhz bu idmançılar üçün texniki-taktiki seminar da keçirilib. Ümumiyyətlə, aprel ayında belə seminarlar sırasına karate-do və güləşi də əlavə etmək olar. Seminarlarda məşqçi və hakimlər, həmçinin idmançılar yeni qaydalarla tanış olub, bu qaydalar praktik olaraq nümayiş etdirilib.

Federasiyaların nazirliklə birgə keçirdiyi yarışlardan biri də Naxçıvan Muxtar Respublika Stadionunda baş tutub. Belə ki, stadionun qaçış zolağında Heydər Əliyev adına Hərbi Liseyin kursantları arasında velosiped yarışı üzrə birincilik keçirilib və 50-dən çox idmançı yarışda mübarizə aparıb. Eyni zamanda Naxçıvan Şəhər Uşaq-gənclər idman məktəbinin zalında yunan-Roma güləşi üzrə daxili birincilikdə 70-ə yaxın pəhləvan qüvvəsini sınayıb.

Geridə qoyduğumuz ay ərzində təşkil edilən və daha çox tamaşaçı toplayan yarışlardan biri də "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında pauerliftinq üzrə muxtar respublika birinciliyi idi. Artıq ənənə halını alan və hər il Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən birincilikdə 9 çəki dərəcəsində 50-yə yaxın idmançı gücünü sınayıb.

Muxtar respublikada fərdi növlərlə yanaşı, kollektiv idman növlərinə də maraq yüksəkdir. Xüsusilə sağlamlıq imkanı məhdud insanların bu sahəyə maraq göstərməsi diqqətdən yayınmır. Hər zaman diqqət mərkəzində olan paralimpiyaçılar bu dəfə İlham Əliyev adına Olimpiya-İdman Kompleksində bir araya gəliblər. Futzal üzrə keçirilən muxtar respublika birinciliyində 6 komandada 48 paralimpiyaçı meydana çıxıb.

Bu kompleks 3 gün ərzində kişilər arasında voleybol üzrə Naxçıvan Muxtar Respublika açıq birinciliyinə də ev sahibliyi edib. Qızların idmana cəlbi yönündə daim səy göstərən Basketbol Federasiyası yoldaşlıq görüşü təşkil edib, Naxçıvan Atıcılıq Mərkəzində isə "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü üzrə muxtar respublika çempionatı keçirilib.

Bu cür yarışlar, tədbirlər ay ərzində muxtar respublikanın rayonlarında da baş tutub. Rayonlarda keçirilən stolüstü tennis, futbol, şahmat, güləş, boks yarışlarına 400-ə yaxın uşaq, yeniyetmə və gənc cəlb olunub.

Aprel ayında ölkədaxili və beynəlxalq turnirlərdə də idmançılarımız uğurla çıxış ediblər. Belə ki, Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyasının yetirməsi olan Nail Hüseynov Ukraynanın Xarkov şəhərində keçirilən kikboksinq üzrə Avropa çempionatında mübarizə aparıb. O, ful-kontakt və layt-kontakt versiyaları üzrə Avropa çempionu adına layiq görülüb. Federasiyanın digər yetirmələri isə MMA üzrə gənclər və kişilər arasında keçirilən 5-ci Azərbaycan çempionatında güclərini sınayıblar. 13 idmançımızdan 1-i qızıl, 8-i gümüş, 1-i isə bürünc medal qazanıb. Bu nəticə "Naxçıvan" komandasının Azərbaycan çempionatını ikinci pillədə başa vurmasına səbəb olub.

Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının yetirməsi Abbas Həsənov isə Balakən rayonunda keçirilən Məktəblilərin X Respublika Oyunlarında bürünc medal qazanıb.

Ümumiyyətlə, aprel ayını idman aləmində "beynəlxalq yarışlara hazırlıq ayı" adlandırırlar. Məhz bu ay ərzində keçirilən yarışlar və turnirlər göstərdi ki, muxtar respublikada idmana və idmançılara hər zaman diqqət göstərilir və onların uğur qazanması üçün nazirlik və federasiyalar yorulmadan çalışırlar. Bunun nəticəsidir ki, geridə qoyduğumuz ay təşkil edilən idman tədbirlərində 1500-ə yaxın uşaq, yeniyetmə və gənc iştirak edib.

**Ceyhun MƏMMƏDOV**

## Boks turnirinə start verilib



***Dünən Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində boks üzrə "Heydər Əliyev kuboku" uğrunda muxtar respublika turnirinə start verilib.***

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Boks Federasiyasının birgə təşkil etdiyi turnirdə 80-ə yaxın dəri əlcək sahibi mübarizə aparır. Beynəlxalq Boks Federasiyasının qaydalarına uyğun olaraq keçirilən turnirdə muxtar respublikanın şəhər və rayonlarının dəri əlcək sahibləri iştirak edirlər.

Turnirdə 2000, 2001, 2002-ci illər təvəllüdlü yeniyetmələr, gənclər və böyüklər 10 çəki dərəcəsində rinqə çıxıblar. Qaliblər 40, 45, 50, 56, 60, 64, 69, 75, 81 və 91 kiloqram çəki dərəcələrində müəyyənləşəcək.

Turnirin ilk günündə hər çəki dərəcəsində mübarizə aparan boksçular final yolunda rinqə çıxacaqlar. Həlledici qarşılaşmalar isə bu gün keçiriləcək.

Qeyd edək ki, dünən keçirilən döyüşlərdən sonra iştirakçılar Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyini ziyarət ediblər.

## Daxili birinciliyin qalibləri müəyyənləşib

***Naxçıvan Şəhər Uşaq-gənclər idman məktəbinin zalında kiçikyaşlı yeniyetmələr (2002-2004-cü illər təvəllüdlü) arasında yunan-Roma güləşi üzrə daxili birincilik keçirilib.***

"Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında keçirilən birincilikdə 70-ə yaxın pəhləvan qüvvəsini sınayıb.

Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının təşkil etdiyi birinciliyin açılış mərasimində çıxış edən federasiyanın sədr müavini Faiq İsgəndərov bildirib ki, bu gün Naxçıvanda güləşin inkişafı üçün hər bir şərait yaradılıb. Məqsəd qədim idman növünü uşaqlar arasında geniş yaymaq və onu kütləvi hala gətirməkdir. Bunun üçün belə yarışların təşkili vacibdir. Məktəbin daxili birinciliyini keçirməklə həm də kiçikyaşlı yeniyetmələrin yarış təcrübələrini artırmış oluruq.

Yarışın yekun nəticəsinə gəlincə, Nicat Ocaqquliyev (29 kiloqram), Uğur Məmmədov (32 kiloqram), Kənan Qasımov (35 kiloqram), Hüseyn Əhmədli (38 kiloqram), Kamran Məmmədov (42 kiloqram), Abbas Nəzərəliyev (46 kiloqram), Sabir Məmmədov (50 kiloqram), Anar Həsənov (54 kiloqram), Rəvan Bayramov (58 kiloqram), Asiman Novruzov (63 kiloqram) və Qoca Əhmədov (69 kiloqram) rəqiblərini üstələyərək birinciliyin qalibi olublar.

Sonda qalib güləşçilər diplomlarla təltif ediliblər.

**Xəbərlər şöbəsi**


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Mühbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 340